# Yad yurdun sükutundan Vətən səsinə doğru




**Hər il iyunun 20-də beynəlxalq ictimaiyyət müharibənin, münaqişənin və təqibin amansız burulğanına düşərək doğma ocaqlarını tərk etmək məcburiyyətində qalan milyonlarla insanın taleyini anır. Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 4 dekabr 2000-ci il tarixli qətnaməsi ilə təsis edilən Ümumdünya Qaçqınlar Günü yurd həsrəti çəkən, bütün yaddaşını, keçmişini və ümidlərini qəlbinə sığdırıb naməlum gələcəyə addımlayan insanların sarsılmaz iradəsinə və dözümünə ehtiramdır. Bu gün eyni zamanda, dünyanın diqqətini artmaqda olan qlobal böhrana cəlb etmək üçün həyəcan siqnalıdır. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının son hesabatlarına görə, məcburi köçkünlərin sayı dünya miqyasında heç vaxt olmadığı qədər yüksək səviyyəyə çataraq yüz milyonu ötüb və bu rəqəm Suriyadan Ukraynaya, Sudandan Myanmaya, Əfqanıstandan Konqo Demokratik Respublikasına qədər uzanan geniş coğrafiyada yeni münaqişələrin alovlanması və iqlim dəyişmələrinin yaratdığı fəlakətlərin təsiri ilə durmadan artmaqdadır. Hər bir rəqəmin arxasında bir insan taleyi, yarımçıq qalmış hekayə və yenidən başlamaq üçün göstərilən cəsarət dayanır.**

Onilliklər boyu bu qlobal humanitar fəlakətin episentrində dayanmış, bu ağrını yaşamış ölkələrdən biri də Azərbaycandır. XX əsrin sonlarında Ermənistanın hərbi təcavüzü və məqsədyönlü etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan məcburi köçkünlərin sayına görə dünyanın ən çox əziyyət çəkən ölkələrindən birinə çevrildi. Bu, sadəcə beynəlxalq hesabatlarda yer alan statistika deyil, bir milyondan çox insanın taleyinə yazılan silinməz faciənin rəqəmlərlə ifadəsidir. Bu kütlənin içində təkcə Qarabağ və Şərqi Zəngəzurdan zorla didərgin salınmış 700 mindən çox məcburi köçkün deyil, həm də öz tarixi-etnik torpaqları olan indiki Ermənistan ərazisindən qovulmuş 300 minə yaxın azərbaycanlı qaçqın və 1944-cü ildə Stalinin qərarı ilə Mərkəzi Asiyaya sürgün edilmiş və sonradan Fərqanə hadisələri zamanı oradan da qovularaq Azərbaycana pənah gətirmiş 50 minə yaxın Axıska türkü də var.

Azərbaycan üçün qaçqınlıq və məcburi köçkünlük problemi bir neçə onilliyi əhatə edən, neçə nəslin yaddaşına həkk olunan dərin yaradır. Bu dərd dağıdılmış evlərin, qəbiristanlıqların, yarımçıq qalmış arzuların və bir daha heç vaxt geri dönməyəcək anların, itirilmiş uşaqlığın acısını özündə daşıyır. Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə siyasəti epizodik hadisə deyil, XX əsr boyunca mərhələlərlə həyata keçirilən sistemli siyasətin kulminasiyası idi. 1905-1906-cı illərdə çar Rusiyasının dəstəyi ilə başlayan qırğınlar 1918-1920-ci illərdə daşnakların törətdiyi soyqırımlarla davam etdi. Sovet dövründə 1948-1953-cü illərdə isə Stalin rejiminin qərarı ilə yüz minlərlə azərbaycanlı "kolxoz quruculuğu" bəhanəsi ilə tarixi yurdları olan Qərbi Azərbaycandan (indiki Ermənistan) Azərbaycanın isti Mil-Muğan düzənliyinə deportasiya edildi. 1988-1991-ci illərdə Sovet İttifaqının çökməkdə olduğu dövrdə erməni millətçiləri bu fürsətdən istifadə edərək yüz minlərlə azərbaycanlını ata-baba yurdlarından son nəfərinədək qovdular. Bu proseslər zamanı yüzlərlə kənd yerləyeksan edildi, minlərlə dinc insan, o cümlədən qocalar, qadınlar, uşaqlar işgəncə və vəhşiliklə qətlə yetirildi. 1988-ci ilin soyuq noyabr-dekabr günlərində 300 minə yaxın azərbaycanlı evlərindən didərgin salındı, əmlakları mənimsənildi, bir çoxu isə qışın amansız şaxtasında, qarlı dağ aşırımlarını aşmağa çalışarkən həyatını itirdi. Bu, bir xalqın minillik tarixi yurdundan, mədəni və mənəvi köklərindən zorla qoparılması demək idi.

Keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin Qarabağda alovlanması ilə ölkəmiz yeni və daha böyük köçkün dalğası ilə üzləşdi. Qarabağ və ətraf yeddi rayonun - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilanın işğalı bəşəriyyətə qarşı ən ağır cinayətlərlə müşayiət olundu. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən Xocalı soyqırımı müharibənin ən qanlı və unudulmaz səhifəsidir. Bir gecədə 613 dinc azərbaycanlı, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca yalnız etnik mənsubiyyətinə görə xüsusi amansızlıqla qətlə yetirildi, 1275 nəfər əsir və girov götürüldü. Ardınca Şuşanın, Laçının və digər rayonların işğalı yüz minlərlə insanın bir anda bütün varidatını, evini itirərək məcburi köçkün statusu daşımağa məhkum etdi. Bu insanlar Azərbaycanın 62 müxtəlif şəhər və rayonuna səpələnərək ilk illərdə çadır düşərgələrində, yarımçıq tikililərdə, yataqxanalarda, sanatoriyalarda və hətta vaqonlarda olduqca ağır şəraitdə yaşamağa məhkum edildilər.

Çadır düşərgələrindəki həyat bir millətin dözüm, səbir və iradə dastanı idi. Yayın qızmar istisi, qışın şaxtası, yağışdan sonra keçilməz palçıqlı yollar, su və elektrik enerjisinin fasilələrlə verilməsi və ya ümumiyyətlə olmaması, sadəcə fiziki çətinliklər deyil, həm də dərin mənəvi sınaq idi. Lakin bütün bu məşəqqətlərə baxmayaraq, insanlar bir gün mütləq doğma yurda geri dönəcəklərinə ümidlərini itirmədilər. Uşaqlar bu ab-havada böyüyür, heç vaxt görmədikləri, lakin valideynlərinin, nənə-babalarının hekayələrindən nağıl kimi dinlədikləri Şuşanın, Ağdamın, Kəlbəcərin xəyalı ilə yaşadılar.

Müstəqilliyinin ilk illərində dərin iqtisadi böhran və siyasi xaosla üzləşən gənc Azərbaycan dövləti üçün bu humanitar fəlakətin idarə olunması olduqca çətin bir vəzifə idi. Lakin, məcburi köçkünlərin problemlərinin həlli dövlət siyasətinin prioriteti oldu. Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulan və sonrakı illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən siyasət ilk növbədə bu insanların sosial müdafiəsini gücləndirməyə və onların mənzil-məişət şəraitini yaxşılaşdırmağa yönəldi. Beynəlxalq təşkilatlarla əməkdaşlıq quruldu, dövlət büdcəsindən milyardlarla vəsait ayrıldı. Bu siyasətin məntiqi nəticəsi olaraq 2007-ci ilə qədər ölkədəki 12 çadır şəhərciyi ləğv edildi və orada yaşayan insanlar müasir tələblərə cavab verən, bütün zəruri sosial infrastruktura malik yeni salınmış qəsəbələrə köçürüldü. 300 mindən çox qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılmış, onlar üçün 118 müasir qəsəbə salınmışdır. Bu tədbirlər nəticəsində məcburi köçkünlərin yoxsulluq həddi 75 faizdən 12 faizə qədər enmişdi.

Lakin bütün genişmiqyaslı tədbirlər heç vaxt əsas məqsədi - işğal altındakı torpaqların azad edilməsini və məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz və ləyaqətli şəkildə geri qaytarılmasını əvəz edə bilməzdi. Bu, bütün Azərbaycan xalqının otuz illik həsrəti və ən



böyük arzusu idi. Bu arzu, 2020-ci ilin payızında, 44 günlük Vətən müharibəsi ilə gerçəkləşdi. Müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qazandığı tarixi Zəfər otuz illik işğala son qoydu, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi və "Böyük Qayıdış" adlanan yeni, tarixi dövrün başlanğıcını qoydu.

Böyük Qayıdış, sadəcə insanların fiziki olaraq evlərinə dönməsi demək deyil, bu, həm də bir xalqın tarixi yaddaşını, düşmən tərəfindən viran qoyulmuş şəhər və kəndləri yenidən canlandırması, o torpaqlara yenidən nəfəs verməsidir. Bu prosesin ilk qaranquşu 2016-cı ilin Aprel döyüşlərində Lələtəpə yüksəkliyinin azad edilməsindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası oldu. Uzun illər təmas xəttində yerləşdiyi üçün yaşayışın mümkünsüz olduğu bu kənd qısa müddətdə dövlət başçısının sərəncamı ilə yenidən quruldu. 150-dən çox ev, müasir məktəb, Şuşa məscidinin bənzəri olan yeni məscid və bütün zəruri infrastruktur quruldu. Cocuq Mərcanlı bütün məcburi köçkünlər üçün böyük ümid işığı oldu.

Vətən müharibəsindən sonra isə Böyük Qayıdış misli görünməmiş vüsət aldı. Bu prosesin flaqmanı Zəngilan rayonunun Ağalı kəndi oldu. Dünyanın ən müasir trendlərindən olan "ağıllı kənd" konsepsiyası əsasında yenidən qurulan Ağalı ilk sakinlərini 2022-ci ilin iyulunda qəbul etdi. Alternativ və bərpaolunan enerji mənbələri, "ağıllı" idarəetmə sistemləri, müasir kənd təsərrüfatı imkanları və yüksək keyfiyyətli sosial xidmətlər gələcəyi qurmaq məqsədi daşıdığını göstərdi. 2023-cü ilin avqustunda isə otuz illik fasilədən sonra Füzuli şəhərinə ilk köç karvanı yola düşdü. Bir zamanlar həyat qaynayan, lakin işğal nəticəsində viran qoyulmuş Füzulidə yeni, müasir yaşayış binaları, məktəblər, xəstəxanalar ucaldıldı və ilk mərhələdə yüzlərlə ailə doğma şəhərinə qovuşdu. Bakının Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola düşən avtobusların pəncərələrindən boylanan insanların üzündəki sevinc, qürur və göz yaşları ilə qarışıq təbəssüm otuz illik həsrətin sona çatmasının ən təsirli ifadəsi idi. Eyni sevincli anlar Laçın şəhərinin, Talış və Suqovuşan kəndlərinin sakinlərinin də qisməti oldu. Artıq minlərlə keçmiş məcburi köçkün öz dədə-baba yurdlarında yeni həyata başlayıb.

Bu qayıdış təbii ki, böyük çağırışlarla da müşayiət olunur. Ermənistanın işğal dövründə bir milyondan çox mina basdırması nəticəsində azad edilmiş ərazilərin dünyanın ən çox minalanmış bölgələrindən birinə çevrilməsi qayıdış prosesinə ən böyük maneədir. Bu, faktiki olaraq davam edən gizli müharibədir və bu günə qədər yüzlərlə hərbçi və mülki şəxsin həyatına son qoyulub. Azərbaycan dövləti beynəlxalq tərəfdaşlarla birlikdə genişmiqyaslı minatəmizləmə əməliyyatları aparsa da, prosesin tam başa çatması üçün uzun illər və böyük vəsait tələb olunur. Bununla yanaşı, otuz il ərzində tamamilə məhv edilmiş infrastrukturun - yolların, körpülərin, elektrik və su xətlərinin, yaşayış binalarının və sosial obyektlərin sıfırdan qurulması da böyük həcmdə maliyyə və zaman tələb edir. Azərbaycan dövləti bütün bu işləri daxili imkanları hesabına həyata keçirir ki, bu da dünyada postmünaqişə quruculuğu üçün unikal presedentdir.

Digər mühüm məsələ keçmiş məcburi köçkünlərin, xüsusilə də köçkünlük həyatı zamanı doğulmuş gənc nəslin psixoloji reabilitasiyası və yeni şəraitə adaptasiyasıdır. Onlar üçün vətən anlayışı uzun illər valideynlərinin yaddaşında yaşayan, xatirələrdə və fotoşəkillərdə qalan məfhum olub. İndi isə onlar bu reallıqla tanış olur, onun bir parçasına çevrilirlər. Bu, həm də dağılmış icmaların yenidən formalaşması, qonşuluq münasibətlərinin bərpası kimi mürəkkəb sosial prosesləri ehtiva edir.

Böyük Qayıdış çərçivəsində Azərbaycanın maddi-mənəvi irsinin bərpasına da xüsusi diqqət yetirilir. İşğal dövründə erməni tərəfi Azərbaycan xalqının mədəni və dini irsinə qarşı misli görünməmiş urbisid törətmişdir. Yüzlərlə tarixi-dini abidə, o cümlədən dünya əhəmiyyətli məscidlər, kilsələr, məqbərələr, muzeylər, qala divarları ya tamamilə dağıdılmış, ya da saxtalaşdırılmışdır. Bu gün Azərbaycan dövləti Şuşadakı Yuxarı və Aşağı Gövhər Ağa məscidlərini, Saatlı məscidini, Vaqif məqbərəsini, Ağdam Cümə məscidini və digər onlarla abidəni ilkin memarlıq üslubuna uyğun şəkildə bərpa edərək xalqın mənəvi yaddaşını, mədəni ruhunu dirçəldir. Hər il Şuşada keçirilən "Xarıbülbül" musiqi festivalı, Vaqif Poeziya Günləri bu torpaqlara mədəniyyətin və incəsənətin qayıdışının simvoludur.

Belə qlobal və milli fonda Azərbaycanın təcrübəsi həm faciəvi dərinliyi, həm də qələbənin ilhamverici gücü ilə fərqlənir. Bu təcrübə, bir tərəfdən, münaqişənin və işğalın insan talelərini necə kökündən sarsıtdığını bütün reallığı ilə göstərir, digər tərəfdən isə güclü siyasi iradə, milli birlik və düzgün strategiya ilə ən mürəkkəb problemlərin həll oluna biləcəyini, ən dərin yaraların sağala biləcəyini bütün dünyaya nümayiş etdirir. Böyük Qayıdış insan ruhunun, vətən sevgisinin və səbrin təntənəsidir.

20 iyun - Ümumdünya Qaçqınlar Günü bizə bir daha xatırladır ki, dünyanın heç bir guşəsində heç bir insan evini, uşaqlıq xatirələrini, bağçasındakı ağacın kölgəsini könüllü olaraq tərk etmir. Hər bir qaçqın və məcburi köçkün hekayəsində itirilmiş dünya, dağılmış həyat və yenidən ayağa qalxmaq üçün əzəmətli güc yer tutur. Azərbaycanın timsalında biz bu cəsarətin, sarsılmaz iradənin zəfərlə nəticələndiyinə, otuz illik sükutun doğma vətən torpağının səsinə, Şuşa azanının sədasına qovuşduğuna şahidlik edirik. Bu, bütün bəşəriyyət üçün sülhün və ədalətin nə qədər əvəzsiz nemət olduğunu və onun bərpası uğrunda mübarizənin nə qədər haqlı və şərəfli olduğunu göstərən canlı tarixdir.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**